## Dövlət Əmək Müfəttişliyi Xidmətinin 2025-ci il ərzində görülmüş işlərə dair hesabatı

2025-ci il ərzində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti (bundan sonra – Xidmət) tərəfindən aşağıdakı istiqamətlər üzrə müvafiq tədbirlər həyata keçirilmişdir:

### ❖ Əmək hüquqları ilə bağlı daxil olmuş müraciətlərin araşdırılması üzrə

Xidmət tərəfindən 2025-ci il ərzində "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq vətəndaşlardan daxil olmuş 21897 şikayət, eləcə də müxtəlif müəssisə, idarə və təşkilatlar tərəfindən göndərilmiş 21675 sorğu və məktub araşdırılaraq cavablandırılmışdır.

2025-ci il ərzində "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq Xidmət tərəfindən əmək hüquqlarının pozulması ilə əlaqədar 21897 müraciət araşdırılmışdır. Bunlardan 7261 (33,2%) müraciət qadınların, 14636 (66,8%) müraciət isə kişilərin əmək hüquqlarının pozulması ilə əlaqədar olmuşdur.

Müxtəlif orqanlardan daxil olmuş materialların və vətəndaş müraciətlərinin araşdırılması zamanı 6897 halda işəgötürənlər və onların vəzifəli şəxsləri tərəfindən əmək qanunvericiliyinin tələblərinin pozulduğu aşkar edilmişdir.

Xidmət tərəfindən görülmüş tədbirlər nəticəsində vətəndaşlara gecikdirilmiş və ödənilməli olan 842344,95 AZN məbləğində vəsaitin ödənilməsi təmin edilmişdir.

Həmin ödənişlərdən:
93,66 %-i (788934,49 AZN) əmək haqqı;
1,67 %-i (14050 AZN) zərərə görə ödənc;
4,67 %-i (39360,46 AZN) sosial müavinət və kompensasiyadan ibarət olmuşdur.

Hesabat dövründə əmək müqavilələrinə qanunvericiliyin tələbləri pozulmaqla xitam verilmiş 89 nəfər öz əvvəlki işinə bərpa edilmişdir. Eyni zamanda işçilərin əmək hüquqlarının bərpası ilə əlaqədar işəgötürənlərə 4629 icrası məcburi olan göstəriş verilmişdir.

Hesabat dövründə Xidmətin vəzifəli və rəhbər şəxsləri tərəfindən 16494 vətəndaş qəbul edilmişdir.

Vətəndaş müraciətlərinə baxılmasını daha operativ və şəffaf şəraitdə həyata keçirmək məqsədilə Bakı və Bərdə şəhərlərində, Abşeron rayonunda "DOST" Mərkəzlərində vətəndaş müraciətlərinin qəbul edilməsi, baxılması, izahatların alınması və protokolların yazılması həyata keçirilmişdir. Şikayətlərə baxılması (izahatların alınması, protokolların yazılması və s.) prosesi xüsusi video müşahidəli otaqlarda həyata keçirilmişdir.

İşçi və işəgötürənlərə çevik və operativ əlaqənin, habelə əks əlaqənin qurulması və onların şikayətlərinin daha operativ araşdırılmasının təmin edilməsi məqsədilə zənglər əmək və sosial müdafiə sahəsində ixtisaslaşmış "142" Çağrı mərkəzi tərəfindən həyata keçirilmişdir.

İşəgötürənlərlə inzibati xətalar üzrə işlərə 1466 halda videokonfrans formatında baxılmışdır.

Xidmətin sosial şəbəkə hesablarından daxil olan vətəndaş şikayətləri araşdırılmaya yönləndirilmiş, "çat-botlar", sosial şəbəkələr və "WhatsApp" nömrəsi ilə vətəndaşların sualları birbaşa cavablandırılmışdır.

### ❖ Əmək münasibətlərinin rəqəmsallaşdırılması və elektron nəzarət tədbirləri üzrə

“Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi barədə” 2024-cü il 28 iyun tarixli 1195-VIQD nömrəli Azərbaycan Respublikası Qanununa əsasən əmək müqavilələrinin elektron sənəd formasında bağlanılmasına başlanılmışdır. Eyni zamanda “İşəgötürənlər tərəfindən əmək müqavilələrinin elektron sənəd formasına keçirilməsi mərhələlərinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 sentyabr 2024-cü il tarixli 425 nömrəli Qərarına əsasən 28 iyun 2024-cü il tarixindən əvvəl bağlanmış qüvvədə olan əmək müqavilələrinin işəgötürənlər tərəfindən elektron sənəd formasına keçirilməsi mərhələləri müəyyən edilmiş və bununla bağlı ƏMAS üzərindən işəgötürənlərə müvafiq xəbərdarlıq və məlumatlandırma göndərilmişdir.

Görülmüş tədbirlər nəticəsində elektron əmək müqavilələrinin ümumi əmək müqavilələrində xüsusi çəkisi 96,23% (dövlət sektoru üzrə 99,75%, özəl sektor üzrə 93,29%) təşkil etmisdir. Belə ki, 04 yanvar 2026-cı il tarixinə mövcud olan elektron əmək müqavilələrinin sayı 1822794 (858812 dövlət sektoru üzrə, 963982 özəl sektor üzrə) təskil etmişdir.

Əmək münasibətlərində operativliyin və şəffaflığın artırılması, kadr kargüzarlığının elektron müstəviyə keçirilməsi, əmək münasibətləri sahəsində rəqəmsal göstəricilərin reallığa uyğunlaşdırılması, işəgötürənlər tərəfindən sui-istifadə hallarının qarşısının alınması və proaktiv nəzarət tədbirlərinin təşkili, işçilərin hüquqlarının təmin edilməsi səviyyəsinin artırılması məqsədilə ƏMAS-da aşağıdakı funksionallıqlar yaradılmışdır:

- Xəstəlik vərəqələrinin ƏMAS-a inteqrasiya edilməsi;
- İşçilərin digər əmrlərinə dair məlumatların şəxsi kabinetlərində əks olunması;
- ƏMAS-ın “Statistika” bölməsinin təkmilləşdirilməsi məqsədilə işəgötürənlər üçün ƏMAS-da əlavə reyestrlərin yaradılması;
- İşçilərin iş illəri üzrə məzuniyyət günlərinin (adı və soyadı, iş illəri, əsas və əlavə məzuniyyət günləri, istifadə olunmuş günlər, qalıq məzuniyyət günləri) hesabat formasında əldə edilməsi;
- Əmək müqaviləsi bağlanarkən və əmək münasibətləri prosesində işçinin əmək müqaviləsindən başqa imzaladığı digər sənədlərin (tam maddi məsuliyyət haqqında müqavilə, işçinin əməyin mühafizəsi, təhlükəsizlik və digər daxili qaydalarla tanışlığı haqqında bildirişlər və s.) ƏMAS üzərindən imzalanması;
- ƏMAS-da əməyin mühafizəsi üzrə məsul şəxs təyin olunarkən ixtisası barədə işəgötürənin məlumatlandırılması;
- İşəgötürən qismində vəzifəli şəxs təyin olunarkən şəxsi kabinetinə məlumatlandırma bildirişinin göndərilməsi;
- Büdcədən maliyyələşdirilən səhiyyə işçilərinin əməyinin ödənilməsi sistemi, növləri və məbləğinin ƏMAS-a əlavə edilməsi;
- Əmək müqaviləsində işçinin faktiki iş ünvanı bölməsinə xarici ölkələrin seçilməsi üçün funksionallığın əlavə olunması;
- ƏMAS-da əməyin mühafizəsi üzrə məsul şəxs təyin olunarkən ixtisası barədə işəgötürənin məlumatlandırılması.

- Qısaldılmış iş vaxtının tətbiqi ilə bağlı mövcud məhdudiyyətlərin ƏMAS sistemində texniki olaraq təmin edilməsi, o cümlədən:
    - 16 yaşınadək işçilər üçün həftəlik iş vaxtının maksimum 24 saat olaraq müəyyən edilməsi;
    - 16-18 yaşadək işçilər, habelə orqanizmin funksiyalarının 61–100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər üçün həftəlik iş vaxtının maksimum 36 saat olaraq müəyyən edilməsi.

Dövr ərzində işəgötürənlər tərəfindən işçilərin “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən işçilərin icbari sığorta olunması və Əmək Məcəlləsinin 155-ci maddəsinin 3-cü hissəsinə əsasən aylıq iş vaxtı normasını işləmiş və əmək funksiyasını yerinə yetirmiş işçinin aylıq əmək haqqısının dövlət tərəfindən müəyyən edilmiş minimum əmək haqqı məbləğindən aşağı müəyyən edilməməsi üçün Xidmət tərəfindən işəgötürənlərə ƏMAS-da xəbərdarlıqların yerləşdirilməsi, sms bildirişlərin, məktubların göndərilməsi kimi tədbirlər görülmüşdür.

Aparılmış maarifləndirmə tədbirlərinə baxmayaraq qanunvericiliyin tələblərinə riayət etməyən işəgötürənlər barədə inzibati məsuliyyət tədbirləri görülmüşdür.

❖ **Qeyri-formal məşğulluğun qarşısının alınması üzrə**

“Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli Qanunu ilə Azərbaycan Respublikası ərazisində sahibkarlıq subyektlərində aparılan yoxlamalar 01 yanvar 2026-cı il tarixədək dayandırılmışdır. Qeyd olunan Qanunun tələblərinə uyğun olaraq Xidmət tərəfindən 2025-ci il ərzində əyani (yerində) yoxlamalar həyata keçirilməmişdir. Lakin “Tikinti sahəsində qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması ilə bağlı nəzarətin gücləndirilməsinə dair tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 17 aprel tarixli 1349 nömrəli Fərmanına əsasən yaradılmış Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi tərəfindən aparılan yoxlamalar, Hüquq mühafizə orqanlarından əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin yerinə yetirilməsinə cəlb edilməsinin nəticələrinə dair Xidmətə göndərilən məlumatlar və “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq Xidmətə daxil olmuş vətəndaş müraciətləri tərəfimizdən qanunvericiliyin tələblərinə uyğun olaraq araşdırılaraq müvafiq tədbirlər görülür.

Beynəlxalq təcrübə və Beynəlxalq Əmək Təşkilatının (BƏT) konvensiya və tövsiyələri nəzərə alınmaqla əmək qanunvericiliyinə riayət olunması sahəsində risk əsaslı yoxlamaların təşkili və aparılması məqsədilə layihəsi hazırlanmış risk modeli simulyasiya edilmiş, əldə olunan nəticələr nəzərə alınmaqla modelin təkmilləşdirilməsi üçün risk meyarları yenidən təhlil olunmuş və qeyri-formal məşğulluq bölməsi üzrə yeni meyarlar əlavə edilmişdir.

“Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına giriş” informasiya sistemindən əldə edilmiş məlumatların ƏMAS ilə qarşılıqlı təhlili zamanı sistem üzərindən iş icazəsi alınan, lakin ƏMAS-a əmək müqaviləsi bildirişi daxil etməyən işəgötürənlər aşkar edilmiş, onlar üzrə müvafiq tədbirlər (ilk növbədə elektron qaydada xəbərdarlıq, uyğunsuzluqlar aradan qaldırılmazsa inzibati tədbirlər) görülmüşdür.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (Nazirlik) “Təhlil” altsistemində Dövlət Sosial Müdafiə Fondunun (DSMF) məlumat bazası ilə ƏMAS-a daxil edilmiş məlumatların üzləşdirilməsi məqsədilə yaradılmış alt modul vasitəsilə mütəmadi təhlillər aparılmışdır.

Azərbaycan Respublikasının 25 fevral 2020-ci il tarixli Fərmanı ilə təsdiqlənmiş “Qeyri-formal məşğulluğa nəzarət” vahid elektron informasiya ehtiyatına inteqrasiyası tələb olunan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı”na müvafiq olaraq qurumlararası inteqrasiyanın genişləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məktub göndərilmişdir.

Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində əmək müqavilələrinin sayında artım dinamikası davam etmiş, ƏMAS-dan yanvar ayının 4-nə əldə olunan məlumata əsasən

2025-ci ilin əvvəlindən əmək müqavilələrinin sayında özəl sektorda  49267 və ya 5 % artım olmuşdur.

### ❖ Uşaq əməyi və məcburi əməyin qarşısının alınması üzrə

Əmək qanunvericiliyinin (Əmək Məcəlləsi, maddə 49) tələblərinə əsasən əmək müqaviləsi və ya ona dəyişiklik ƏMAS-da tərəflərin gücləndirilmiş elektron imzası ilə imzalandıqda, son imzalanma tarixindən əmək müqaviləsi bağlanılmış və ya ona dəyişiklik edilmiş hesab olunur və hüquqi qüvvəyə minir. Qeyd olunan sistemdə yaradılmış funksionallıq sayəsində 15 yaşdan aşağı olan şəxslərlə əmək müqaviləsinin bağlanmasına dair bildirişin qeydiyyata alınmasına imkan verilmir. Sistemdə 16 yaşdan az olan işçilərə əmək məzuniyyətinin 42 təqvim günündən, 16 yaşından 18 yaşınadək işçilərə isə 35 təqvim günündən az təyin olunmasına qadağa müəyyən edilmişdir.

15-18 yaşınadək olan şəxslərlə əmək müqaviləsi bağlanarkən onların valideynlərindən və ya övladlığa götürənlərdən (qəyyumlarından) birinin və yaxud qanunla onları əvəz edən şəxslərin yazılı razılığının ƏMAS-a əlavə edilməsi təmin edilmişdir.

Bununla yanaşı “Yaşı 18-dən az olan işçilərin əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə təsdiq olunmuş yaşı 18-dən az olan işçilərin əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısı üzrə uşaq əməyindən istifadənin qarşısının alınması məqsədilə ƏMAS-da müvafiq funksionallıq yaradılmışdır.

Eyni zamanda Əmək Məcəlləsinin “İş vaxtının növləri və tənzimlənməsi qaydaları” fəslinə uyğun olaraq 15-18 yaşınadək olan şəxslər üzrə həftəlik iş vaxtının yuxarı həddi ilə bağlı məhdudiyyətin tətbiq edilməsi funksionallığı yaradılmışdır.

BƏT-in Azərbaycan Respublikasının 19 may 1992-ci il Qanunu ilə ratifikasiya edilmiş 1973-cü il 138 nömrəli “Minimum yaş konvensiyası”nın 2-ci maddəsinin 3-cü bəndinə və Əmək Məcəlləsinin 12-ci maddəsinin 2-ci hissəsinə əsasən 15 yaşına çatmamış şəxsləri işə götürən və ya uşaqları onların sağlamlığına, həyatına və ya mənəviyyatına təhlükə yarada biləcək işlərə cəlb edən işəgötürənlər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilir.

2025-ci il ərzində Xidmətə dövlət orqanlardan daxil olmuş materialların araşdırılması zamanı işəgötürən tərəfindən 6 halda 15 yaşına çatmamış şəxsin işə cəlb edilməsi faktı aşkar edilmiş və bu faktla əlaqədar işəgötürənin vəzifəli şəxsinə İnzibati Xətalar Məcəlləsinin 192.8-ci maddəsinə əsasən 6000 AZN, 1 halda isə uşaqların onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb edilməsi faktı aşkar edilmiş və İnzibati Xətalar Məcəlləsinin 192.9-cu maddəsinə əsasən 3300 AZN məbləğində inzibati cərimə tətbiq edilmişdir.

“Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Uşaq hüquqlarının müdafiəsi üzrə Komissiyanın 2025-ci il üçün Tədbirlər Planı”nda Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə müəyyən edilmiş tədbirlərin icrasının təmin edilməsi məqsədilə Xidmət tərəfindən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə (192.8 və 192.9-cu maddələr) dəyişikliklər layihəsi hazırlanmışdır.

Hazırlanmış layihələr çərçivəsində uşaq əməyinin qanunvericiliklə qadağan edilmiş sahələrdə tətbiqinə görə inzibati məsuliyyət tədbirlərinin sərtləşdirilməsi, sanksiyaların diferensiallaşdırılması, habelə işəgötürənlərin məsuliyyətinin artırılması nəzərdə tutulmuşdur. Layihələr razılaşdırılması üçün Nazirliyə təqdim edilmişdir.

2025-ci ilin ötən dövrü ərzində BƏT-in “Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair” 182 nömrəli

Konvensiyasından irəli gələn öhdəliklərin yerinə yetirilməsi məqsədilə Xidmət tərəfindən "Uşaqların əmək hüquqları, məcburi əmək və insan alverinin qarşısının alınması" mövzusunda Naxçıvan şəhərində, Quba, İsmayıllı, Lənkəran və Salyan rayonlarında yerləşən ümumi təhsil məktəblərində 630 şagirdin iştirakı ilə 8 maarifləndirmə tədbiri keçirilmişdir. Həmçinin Naxçıvan və Sumqayıt şəhərlərində, o cümlədən Oğuz, Bərdə və Şəki rayonlarında də yuxarıda qeyd edilən məsələlər üzrə 300-ə yaxın işəgötürənin iştirakı ilə 5 tədbir həyata keçirilmişdir.

"Uşaq Hüquqları Aylığı" çərçivəsində regionlarda təhsil müəsisələrində uşaqların əmək hüquqlarının qorunması və qeyri-formal məşğulluğa qarşı mübarizə mövzusunda 362 nəfərin iştirakı ilə 6 tədbir təşkil edilmişdir;

Xidmətlə DOST Agentliyi arasında tərəfdaşlıq çərçivəsində "DOST to DOST" layihəsi üzrə "Əmək hüquqları" təlim proqramı həyata keçirilmiş, 2024-cü il ərzində gənc könüllülər üçün uşaqların əmək hüquqlarını da əhatə edən 5 təlim keçirilmişdir. Cari ilin iyun ayında layihənin yekun mərhələsi gənc könüllülər, işəgötürənlər və aidiyyəti dövlət qurumlarının nümayəndələri də daxil olmaqla 100-dən çox iştirakçının iştirakı ilə baş tutmuşdur. Tədbirdə könüllülər təlimlər zamanı əldə etdikləri biliklər əsasında IDEATHON müsabiqəsi formatında təqdimatlarla çıxış etmişdir.

Cari ilin noyabr ayı ərzində Bakı şəhərində yerləşən orta məktəblərdə təhsil alan şagirdlərin iştirakı ilə uşaqların əmək hüquqlarına dair 11 maarifləndirici videoçarx və 21 poster Xidmətin sosial şəbəkə hesablarında paylaşılmışdır. Bundan əlavə məktəblərdə təhlükəsizlik qaydalarına dair öyrədici məlumatları əhatə edən Türkiyə Respublikası ilə əməkdaşlıq çərçivəsində onlar tərəfindən hazırlanmış 13 maarifləndirici animasiyalı videoçarx sosial hesablarda paylaşılmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinə əsasən heç kəs zorla işlədilə bilməz. Əmək müqavilələri sərbəst bağlanır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz. Məhkəmə qərarı əsasında şərtləri və müddətləri qanunla nəzərdə tutulan məcburi əməyə cəlb etmək, hərbi xidmət zamanı səlahiyyətli şəxslərin əmrlərinin yerinə yetirilməsi ilə əlaqədar işlətmək, fövqəladə vəziyyət və hərbi vəziyyət zamanı vətəndaşlara tələb olunan işləri gördürmək hallarına yol verilir.

Əmək Məcəlləsinin 17-ci maddəsinin tələblərinə əsasən hər hansı qayda və üsulla zor işlətməklə, həmçinin əmək müqaviləsinə xitam veriləcəyi hədə-qorxusu ilə işçini əmək funksiyasına daxil olmayan işi (xidməti) yerinə yetirməyə məcbur etmək qadağandır. Qeyd olunan maddənin tələblərinin pozulması ilə əlaqədar İnzibati Xətalar Məcəlləsində inzibati məsuliyyət nəzərdə tutulmuşdur. Əmək Məcəlləsinin 193-cü (işçini əmək funksiyasına daxil olmayan işi (xidməti) yerinə yetirməyə məcbur etmə maddəsinə əsasən) maddəsinə əsasən əmək müqaviləsinə xitam veriləcəyi və ya kollektiv müqavilədə müəyyən edilmiş güzəşt və imtiyazlardan məhrum ediləcəyi hədə-qorxusu ilə işçini əmək funksiyasına daxil olmayan işi (xidməti) yerinə yetirməyə məcbur etməyə görə işəgötürənlər min manatdan iki min manatadək məbləğdə cərimə edilir. 2025-ci il ərzində Xidmətə əmək funksiyasına daxil olmayan işi (xidməti) yerinə yetirməyə məcbur etmə faktı ilə bağlı müraciət daxil olmamışdır.

Xidmətin təsdiq olunmuş Tədbirlər Planına uyğun olaraq keçirilən maarifləndirmə tədbirlərindən 8-i "Uşaqların əmək hüquqları, məcburi əmək və insan alverinin qarşısının alınması" mövzusuna həsr edilmişdir. Bundan əlavə məcburi əmək mövzusunda 1 poster hazırlanaraq yayımlanmış, eləcə də mövzu Xidmət əməkdaşının iştirakı ilə AZTV-nin "Günə davam" verilişində müzakirə edilmişdir.

Eyni zamanda müfəttişlərin potensialının gücləndirilməsi və məcburi əməyə cəlb edilməsi hallarının aşkar edilməsi bacarıqlarının inkişaf etdirilməsi məqsədilə müfəttişlər mütəmadi olaraq beynəlxalq və daxili təlimlərə cəlb edilirlər.

- **Əməyin mühafizəsi, sağlam və təhlükəsiz iş şəraitinin təşkili üzrə**

Nazirliyin fəaliyyəti ilə bağlı bəzi məsələlərin tənzimlənməsi və “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 may tarixli Fərmanına əsasən yaradılmış Xidmətin tabeliyində “Əməyin Mühafizəsi Mərkəzi” publik hüquqi şəxsi (Mərkəz) tərəfindən işəgötürənlərə əməyin mühafizəsi və iş yerlərinin attestasiyası sahələrində metodiki dəstək göstərilir, eləcə də bu sahələrdə təlimlərin keçirilməsi davam etdirilir. Mərkəzin zəruri infrastruktur, laboratoriya və instrumental ölçmələr üçün tələb olunan avadanlıqlarla təmin edilməsi istiqamətində işlər aparılır.

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3721 nömrəli Sərəncamı ilə təsdiq olunmuş “Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı”na dair Tədbirlər Planının icrası ilə bağlı texniki reqlamentlərin hazırlanması istiqamətində Xidmət tərəfindən “Fərdi mühafizə vasitələrinin təhlükəsizliyi haqqında milli texniki reqlament”in təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı layihəsi hazırlanmış, razılaşdırılması üçün aidiyyəti dövlət orqanlarına göndərilmişdir. Əlavə olaraq texniki reqlamentdə müəyyən edilmiş əsas tələblərin yerinə yetirilməsini təmin edən ilkin olaraq 478 sayda istinad standartı müəyyən edilmişdir.

Xidmətin sədrliyi ilə fəaliyyət göstərən “Əmək sahəsində” standartlaşdırma (AZSTAND/TK21) üzrə Texniki Komitənin Fəaliyyət Planlarına əsasən hazırlanması nəzərdə tutulan standart layihələri Azərbaycan Standartlaşdırma İnstitutu” publik hüquqi şəxsinə (AZSTAND) təqdim edilmiş və 2025-ci il ərzində əmək sahəsində 110 yeni standart AZSTAND tərəfindən dövlət standartı kimi qəbul edilmişdir.

Təsdiq edilmiş standartlar üzrə Xidmət tərəfindən maarifləndirmə tədbirləri həyata keçirilmişdir.

Mərkəz tərəfindən iş yerlərinin attestasiyasının keçirilməsi istiqamətində də sistemli fəaliyyət həyata keçirilir. Bu çərçivədə Nazirliyin 22 qurumunda, eləcə də Azərbaycan Tibb Universiteti və Azərbaycan Milli İncəsənət Muzeyində attestasiyanın icrası tamamlanmış, təhlükəli və zərərli amillərin qiymətləndirilməsi aparılmış və müvafiq attestasiya pasportları təqdim edilmişdir.

Əməyin Mühafizə Mərkəzi Xidmət, İSB və Standartlaşma institutu ilə birgə 16 təlim (31 işəgötürən, 493 iştirakçı), bədbəxt hadisələrin ən çox baş verdiyi müəssisələrdə 10 təlim (11 işəgötürən, 351 iştirakçı), SƏTƏM mühəndisləri üçün 12 təlim (48 işəgötürən, 480 iştirakçı), təhsil müəssisələri üzrə 24 təlim (11 təhsil müəssisəsi, 1556 iştirakçı), Naxçıvan Muxtar Respublikasında 50 təlim (12-si təhsil müəssisələrində olmaqla 695 müəssisə, 1424 iştirakçı), təsdiq olunmuş standartlar üzrə 2 təlim (Naxçıvan Muxtar Respublikasında 2 müəssisə üzrə 74 iştirakçı), Nazirlik daxili qurumlar üzrə 22 təlim (512 əməkdaş) keçirmişdir.

Mərkəz tərəfindən müəssisələrdə əməyin mühafizəsi üzrə “Nümunəvi müəssisə” layihəsi davam etdirilir. Layihə çərçivəsində seçilmiş müəssisədə əməyin mühafizəsi standartlarına uyğun olaraq təhlükəsiz iş şəraitinin yaradılmasının təmini və digər müəssisələr üçün nümunəvi müəssisənin təcrübəsinin öyrənilməsinin təşkili nəzərdə tutulur. Layihə çərçivəsində Abşeron-Xızı regionunda yerləşən 1 müəssisəyə (“Azerfloat” QSC) 72 nəfərin iştirakı ilə 3 infotur təşkil edilmişdir. İnfoturlar barədə press-reliz və video icmal Xidmətin rəsmi səhifəsində və sosial şəbəkə vasitələrində yayımlanmışdır. Nümunəvi müəssisə layihəsi çərçivəsində Naxçıvan Muxtar Respublikasında 1 müəssisədə ("ENNA" MMC) əməyin mühafizəsi üzrə nümunəvi şərait yaradılmış və həmin müəssisəyə 2 media-tur təşkil olunmuşdur. Təşkil olunan mediaturlarda Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri və digər dövlət rəsmiləri iştirak etmiş, müəssisəyə vizual olaraq baxış keçirilmiş, əməyin mühafizəsinə dair görülmüş işlər barədə iştirakçılara məlumat verilmişdir.

Həmçinin 26-27 sentyabr 2025-ci il tarixlərində Xidmət tərəfindən Vətən Müharibəsinin 5-ci ildönümünə həsr olunmuş, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin iştirakı ilə Ağdam şəhərində yerləşən müəssisələrə (“EEL-Electric”, “Bafco” və “Tabaterra”) əməyin mühafizəsinə dair mediatur təşkil edilmişdir.

Mediatur çərçivəsində işğaldan azad edilmiş ərazilərdə əməyin mühafizəsi sahəsində görülən işlər barədə məlumat verilmiş, media nümayəndələri müəssisələrdə yaradılmış təhlükəsiz və sağlam əmək şəraiti ilə yerində tanış olmuşlar.

### ❖ Korrupsiyanın qarşısının alınması və kadr potensialının inkişafı üzrə

Xidmətin Aparatında İSO 37001 beynəlxalq standartının tələblərinə uyğun olaraq Aparatın struktur bölmələrində daxili audit yoxlamaları həyata keçirilmişdir.

Hesabat dövrü ərzində Xidmətin əməkdaşları və Nazirliyin Daxili nəzarət və audit şöbəsi ilə birgə Xidmətin Dağlıq Şirvan,Gəncə-Daşkəsən, Şəki-Zaqatala, Mil-Muğan, Abşeron-Xızı regional şöbələrində yoxlamaların keçirilməsi təmin edilmiş, eyni zamanda Xidmətin tədbirlər planına uyğun olaraq regional şöbələrdə maddi-texniki bazanın və etik davranış qaydalarının monitorinq edilməsi məqsədilə Xidmətin Aparatının Daxili nəzarət və audit, Maliyyə və iqtisadiyyat şöbələrinin və Kadr məsələləri sektorunun əməkdaşları ilə birgə Abşeron-Xızı, Quba-Xaçmaz, Gəncə-Daşkəsən, Qazax-Tovuz, Mərkəzi Aran, Qarabağ, Şərqi Zəngəzur, Lənkəran-Astara, Şirvan-Salyan, Dağlıq-Şirvan, Şəki-Zaqatala, Mil-Muğan regional şöbələrinə və Naxçıvan Dövlət Əmək Müfəttişliyi Xidmətinə ezam olunmuşlar.

Vətəndaş müraciətlərinin qanunvericiliyin tələblərinə uyğun araşdırılması ilə bağlı mütəmadi monitorinqlər aparılmış, şikayətlər araşdırılmış, pozuntu halları aşkar edildikdə pozuntuya yol vermiş əməkdaşlar barəsində intizam tənbeh tədbirlərinin görülməsi məqsədilə Nazirliyin Daxili nəzarət və aidit şöbəsinə müvafiq məlumatlar təqdim edilmişdir.

Xidmətin əməkdaşlarının fəaliyyətində korrupsiya hüquq pozması ilə bağlı şikayətlərin verilməsi məqsədilə telefon xətti istifadəyə verilmişdir və bu barədə ictimaiyyət məlumatlandırılmışdır.

Dövr ərzində işə qəbul edilmiş 43 əməkdaşa Xidmət tərəfindən ISO 37001 beynəlxalq standartının tələbinə uyğun olaraq "Antikorrupsiya İdarəetmə Sistemləri və Siyasətlər" mövzusunda təlimlər təşkil edilmişdir. Eyni zamanda 75 əməkdaşa “ISO 9001”, “ISO 45001” və “ISO 37001” standartları üzrə satınalması həyata keçirilmiş təlimlərin keçirilməsi təmin edilmişdir.

Dövr ərzində Xidmətin əməkdaşları üçün BƏT-in 140, 156, 111 və 187 saylı Konvensiyaları üzrə təlimlər keçirilmiş, təlimlərdə ümumilikdə 130 əməkdaşın iştirakı təmin edilmişdir.

Eyni zamanda Xidmətin Aparatı, Bakı şəhər İdarəsi və regional şöbələrində çalışan müfəttiş və hüquqşünasların peşə biliklərinin artırılması üçün “Əmək qanunvericiliyinin tətbiqi”, “Əməyin mühafizəsi”, “Əmək və Məşğulluq Alt Sistemi” və “İnzibati Xətalar Məcəlləsinin tətbiqi” mövzularında ümumilikdə 299 nəfər əməkdaşın iştirakı ilə daxili funksional təlimlər keçirilmişdir.

### ❖ Qanunvericiliyin təkmilləşdirilməsi üzrə

“Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu və “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 178-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi

barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı Azərbaycan Respublikası Prezidenti tərəfindən 30 may 2025-ci il tarixində imzalanmışdır. Qanun layihəsinin qəbulu əmək qanunvericiliyinə nəzarətin daha səmərəli həyata keçirilməsini, o cümlədən hüquqi məsuliyyətin labüdlüyü prinsipi əsas götürülərək Nazirliyin fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan məlumatların həmin orqanın tələbi ilə təqdim edilməməsinə, yaxud tam, düzgün və ya vaxtında təqdim edilməməsinə görə məsuliyyətin müəyyən edilməsini, həmçinin şərti cərimələrin sayının artırılması ilə işəgötürənlər tərəfindən maliyyə itkilərinə məruz qalmadan inzibati xəta pozuntularının aradan qaldırılmasını, hüquqları pozulmuş işçilərin hüquqlarını bərpa olunması və istehsalatda baş vermiş bədbəxt hadisələr barədə müəyyən edilmiş müddətlər ərzində məlumat verilməsini nəzərdə tutmuşdur.

“İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması Qaydalarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 fevral 2000-ci il tarixli 27 nömrəli Qərarına dəyişiklik layihəsi Nazirliyin aidiyyəti şöbələrinin rəyi əsasında yenidən hazırlanaraq orqanlarla razılaşdırılması üçün Nazirliyə göndərilmişdir.

Əmək Məcəlləsinin “Əməyin mühafizəsi” bölməsinə dəyişikliklər edilməsi layihəsi Nazirliyin aidiyyəti şöbələrinin rəyi əsasında yenidən hazırlanaraq Nazirliyə təqdim edilmişdir. Rəy və təkliflərin müzakirəsi ilə bağlı Nazirliklə görüş keçirilməsi nəzərdə tutululmuşdur.

İnzibati Xətalar Məcələsinin şərti cərimələr hissəsinə Xidmətin baxdığı işlər üzrə yeni maddələrin əlavə edilməsinə dair layihə hazırlanaraq Nazirlər Kabinetinə göndərilmişdir.

Dövlət orqanlarında, dövlət büdcəsindən maliyyələşən hüquqi şəxslərdə çalışan işçilərin “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta” növünün DSMF tərəfindən həyata keçirilməsinə dair layihə hazırlanaraq Azərbaycan Respublikasının Milli Məclisinə göndərilmişdir.

İnzibati Xətalar Məcələsinin 192.7-ci maddəsinə dəyişiklik edilməsi ilə bağlı layihə Nazirliyin aidiyyəti şöbələrinin rəyləri nəzərə alınmaqla layihəyə yenidən hazırlanır.

"İş yerlərinin attestasiyasının keçirilməsi Qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli, 38 nömrəli Qərarına dəyişiklik edilməsi haqqında Qərar layihəsinə Nazirliyin aidiyyəti şöbələrinin rəyi əsasında yenidən Xidmətdə baxılır.

Azərbaycan Respublikası Əmək Məcəlləsinə dəyişiklik edilməsi haqqında Qanun layihəsi (saatlıq minimum əmək haqqı ilə bağlı) aidiyyəti orqanların rəyləri nəzərə alınmaqla yenidən işlənmiş və razılaşdırılması üçün müvafiq qurumlara göndərilmişdir. Layihə Ədliyyə Nazirliyi ilə razılaşdırılmış, İqtisadiyyat Nazirliyindən isə rəy daxil olmuşdur. Hazırda layihəyə Əmək siyasəti şöbəsində baxılır.

“Qeyri-formal məşğulluğun leqallaşdırılması sahəsində nəzarət tədbirlərinin keçirilməsi və əlaqələndirilməsi Qaydası”na dəyişiklik layihəsi hazırlanaraq Nazirliyin aidiyyəti struktur bölmələrinin rəy və təklifləri əsasında layihəyə Xidmətdə yenidən baxılır.

“Təcrübəçi” kimi əmək fəaliyyətinə cəlb olunmuş şəxslərin hüquqi statusunu tənzimləyən normaların normativ hüquqi aktlara daxil edilməsi ilə bağlı layihə hazırlanaraq Nazirliyə təqdim edilmişdir. Layihə üzrə Hüquq və Əmək siyasəti şöbələrindən rəy və təkliflər daxil olmuşdur. Layihə rəy və təkliflər nəzərə alınmaqla yenidən hazılanaraq Nazirliyin aidiyyəti şöbələrinə təqdim edilmişdir. Layihə üzrə müvafiq qurumlar tərəfindən rəy və təkliflər verilmişdir. Hazırda layihəyə Xidmətdə baxılır.

“Fərdi mühafizə vasitələrinin təhlükəsizliyi haqqında milli texniki reqlament”in təsdiq edilməsi haqqında Qərar layihəsi rəy bildirilməsi üçün aidiyyəti orqanlara göndərilmişdir.

Əmək Məcəlləsinin 155-ci maddəsinə dəyişiklik edilməsi lə bağlı layihə Nazirlər Kabinetinə göndərilmişdir.

“Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Uşaq hüquqlarının müdafiəsi üzrə Komissiyanın 2025-ci il üçün Tədbirlər Planı”nda Azərbaycan Respublikasının Əmək

və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə müəyyən edilmiş tədbirlərin icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsində (Məcəllənin 192.8 və 192.9-cu maddələri üzrə) dəyişikliklər layihəsi hazırlanaraq Nazirliyə təqdim edilmişdir.

Ödənilən əməkhaqlarını aylıq əsasla görməyi təmin edən mexanizmin konsepsiya sənədinin layihəsi Xidmət tərəfindən hazırlanaraq Nazirliyə, Nazirlik tərəfindən isə razılaşdırılması üçün aidiyyəti qurumlara göndərilmişdir. Mərkəzi Bankla işçi qaydada razılığa gəlinmiş, İqtisadiyyat Nazirliyindən müvafiq rəy daxil olmuşdur. Layihəyə hazırda Nazirlikdə baxılır.

BƏT-in 187 və 184 saylı Konvensiyalarına qoşulma ilə bağlı işlərin görülməsi və ratifikasiya edilmiş Konvensiyalara qanunvericiliyin uyğunlaşdırılması ilə əlaqədar Nazirlik tərəfindən təqdim edilən qanun layihələrinə münasibət bildirilmişdir. Azərbaycan Respublikasında Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyanın 29 dekabr 2023-cü il tarixli 23 nömrəli protokoluna əsasən 155 nömrəli Konvensiyanın 4-cü maddəsinin tələblərinin, eləcə də 187 və 184 nömrəli Konvensiyaların ölkə tərəfindən ratifikasiya imkanlarının araşdırılması və əməyin mühafizəsi məsələlərinin müzakirəsi məqsədilə İşçi Qrupunun yaradılması qərara alınmışdır. İşçi Qrupuna Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK), Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) və Nazirliyin nümayəndələri (Nazirliyin Əmək siyasəti şöbəsi, Xidmət və Mərkəz) daimi üzv qismində daxil edilmişdir. Sosial tərəfdaşların dəstəyi ilə “Əmək təhlükəsizliyinin və gigiyenasının təmin edilməsinin əsasları haqqında” 187 nömrəli Konvensiyanın ratifikasiya imkanlarının araşdırılması üzrə geniş təhlil aparılmış və müvafiq qanun layihəsi hazırlanmışdır. İşçi Qrupunda təsdiq edilən Tədbirlər Planı çərçivəsində əməyin mühafizəsi üzrə Strategiyanın hazırlanması istiqamətində işlər başlanılmışdır. Eyni zamanda “Kənd təsərrüfatında əməyin təhlükəsizliyi və gigiyenası haqqında” 184 nömrəli Konvensiyanın ratifikasiya imkanlarının araşdırılması məqsədilə Kənd Təsərrüfatı Nazirliyinin nümayəndəsi İşçi Qrupuna üzv qismində daxil edilmişdir.

❖ **Həyata keçirilən layihələr üzrə**

Xidmət, Əməyin Mühafizəsi Mərkəzi və Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya ilə birgə həyata keçirilən "DOST Müfəttiş" layihəsinin məqsədi insan resurslarının idarə edilməsi, əmək qanunvericiliyinin tətbiqi, əməyin mühafizəsi və elektron altsistemlərdən istifadə üzrə işəgötürənlərə metodiki dəstək göstərməkdir.

Layihə inkişaf etmiş ölkələrdə geniş yayılmış "self-inspection" (özünü təftiş) modelini tətbiq etməklə müəssisələrin daxili proseslərini təkmilləşdirməsinə, risklərin vaxtında müəyyən edilərək aradan qaldırılmasına şərait yaradır. Könüllü müraciət əsasında ekspertlər tərəfindən aparılan diaqnostik qiymətləndirmələr mövcud boşluqları aşkar edir və onların həlli üçün məsləhətlər təqdim edilir. Layihə çərçivəsində məxfi məlumatların qorunması təmin edilir və aşkar olunan pozuntularla bağlı inzibati cərimə tətbiq edilmir. Bu günədək layihə 28 müəssisədə uğurla həyata keçirilmişdir.

İşçi və işəgötürənlərin hüquq və vəzifələri, o cümlədən əmək bazarının çevikliyi mövzusunda maarifləndirmə tədbirlərinin həyata keçirilməsi, o cümlədən qeyri-formal məşğulluğun qarşısının alınmasına yönəldilmiş məlumatlandırma və təbliğat işlərinin təşkili və könüllülərin Xidmətin əmək hüquqları və əmək qanunvericiliyinin tələblərinə əməl olunmasının təmini sahəsindəki rolu barədə məlumatlandırılması məqsədilə növbəti “DOST to DOST” (D2D) layihəsi həyata keçirilmişdir. “DOST to DOST” layihəsi üzrə könüllülər üçün keçirilən təlim proqramının bağlanış mərasimi keçirilmişdir. Təlim proqramını

müvəffəqiyyətlə başa vuran iştirakçıların 5 komanda üzrə IDEATHON müsabiqəsinə təqdim etdikləri həll yolları münsiflər tərəfindən qiymətləndirilmişdir. Mövzu ətrafında yaradıcı həll yollarının təqdimat formatında nümayişi olan bu müsabiqədə gənclər əmək münasibətləri üzrə innovativ düşüncələrini bölüşmüşlər. Tədbirdə 120-dək şəxs (işəgötürənlər, Nazirlik əməkdaşları, könüllülər və s.) iştirak etmişdir.

Əməyin Mühafizəsi Mərkəzi tərəfindən müəssisələrdə əməyin mühafizəsi üzrə "Nümunəvi müəssisə" layihəsi davam etdirilir. Layihə çərçivəsində seçilmiş müəssisədə əməyin mühafizəsi standartlarına uyğun olaraq təhlükəsiz iş şəraitinin yaradılmasının təmini və digər müəssisələr üçün nümunəvi müəssisənin təcrübəsinin öyrənilməsinin təşkili nəzərdə tutulur. Layihə çərçivəsində Abşeron-Xızı regionunda yerləşən 1 müəssisəyə ("Azerfloat" QSC) 72 nəfərin iştirakı ilə 3 infotur təşkil edilmişdir . İnfoturlar barədə pressreliz və video icmal Xidmətin rəsmi səhifəsində və sosial şəbəkə vasitələrində yayımlanmışdır. Nümunəvi müəssisə layihəsi çərçivəsində Naxçıvan Muxtar Respublikasında 1 müəssisədə ("ENNA" MMC) əməyin mühafizəsi üzrə nümunəvi şərait yaradılmış və həmin müəssisəyə 2 mediatur təşkil olunmuşdur. Təşkil olunan mediaturlarda Nazirlik rəhbərliyi və digər dövlət rəsmiləri iştirak etmiş, müəssisəyə vizual olaraq baxış keçirilmiş, əməyin mühafizəsinə dair görülmüş işlər barədə iştirakçılara məlumat verilmişdir.

❖ **İctimaiyyətlə əlaqələr və maarifləndirici tədbirlər üzrə**

2025-ci il ərzində işçilərin əmək hüquqları sahəsində müxtəlif mövzularda işəgötürənlər və işçilərin maarifləndirilməsi məqsədilə respublikanın bütün ərazisini əhatə edən 282 tədbir və təlim həyata keçirilmiş, bu tədbirlərə 17500-dək şəxs cəlb edilmişdir.

- Nazirliyin, Xidmətin, AHİK və ASK-nın birgə təşkilatçılığı ilə 28 Aprel – Ümumdünya Əməyin Mühafizəsi Günü və ilk kollektiv müqavilənin 120 illiyinə həsr olunmuş "Rəqəmsallaşma və süni intellektin iş yerlərinə təsiri" mövzusunda konfrans keçirilmişdir. Konfransda 500-dək şəxs iştirak etmişdir;
- Maarifləndirmə tədbirlərinin həyata keçirilməsi ilə əlaqədar Xidmətin 2025-ci il üzrə Tədbirlər Planına əsasən Xidmət tərəfindən hesabat dövrü ərzində 59 maarifləndirmə tədbiri həyata keçirilmiş və bu tədbirlərdə 4797 işəgötürən və ya onların nümayəndələri iştirak etmişdir;
- Ağdaş və Oğuz rayonlarında "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Əmək münasibətləri və məşğulluq: müasir çağırışlar və rəqəmsal həllər" mövzusunda konfranslar keçirilmişdir. Tədbirlərdə 600-dək işəgötürən və ya onların nümayəndələri iştirak etmişdir;
- ASAN İnnovativ İnkişaf Mərkəzi ilə birgə "Əmək qanunvericiliyinə dəyişikliklər və ƏMAS", "Analığın mühafizəsi və Qadınların əmək hüquqları", "Qeyri-formal məşğulluğun qarşısının alınması", "Əmək Məcəlləsində məzuniyyət hüququ" 2 dəfə və "Əmək mübahisələrinin həlli yolları" mövzularında 6 təlim təşkil edilmişdir. Təlimlərdə 200-dək işəgötürən və ya onların nümayəndələri iştirak etmişdir;
- Xidmətin əməkdaşları tərəfindən "Əmək qanunvericiliyinə dəyişikliklər və ƏMAS" mövzusunda 20 işəgötürəni əhatə edən 80 nümayəndə üçün onlayn təlim, həmçinin DOST İŞ Mərkəzi və DOST Agentliyinin işçiləri, eləcə də Mediasiya Şurasının üzvləri daxil olmaqla ümumilikdə 50 nəfərin iştirakı ilə 4 əyani təlim keçirilmişdir;
- Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam, Ağdərə, Xocalı, Xocavənd, Kəlbəcər, Laçın, Şuşa və Xankəndi rayonlarında ümumilikdə 46 maarifləndirici tədbir keçirilmiş, xüsusilə əməyin mühafizəsi qaydaları və bu sahədə yeni standartları əhatə edən tədbirlərə 135 işəgötürən üzrə 4700 nəfərdən çox işçi heyəti cəlb edilmişdir;
- "Uşaqların əmək hüquqları, məcburi əmək və insan alverinin qarşısının alınması" mövzusunda 16 maarifləndirmə tədbiri keçirilmişdir. Onlardan 8-i Xidmətin Tədbirlər

Planı əsasında işəgötürən və onların nümayəndələri üçün, 8-i isə 630 şagirdin iştirakı ilə Naxçıvan Muxtar Respublikası da daxil olmaqla regionlarda fəaliyyət göstərən orta məktəblərdə təşkil edilmişdir;

- “Uşaq Hüquqları Aylığı” çərçivəsində regionlarda təhsil müəsisələrində uşaqların əmək hüquqlarının qorunması və qeyri-formal məşğulluğa qarşı mübarizə mövzusunda 362 nəfərin iştirakı ilə 6 tədbir təşkil edilmişdir;
- Lənkəran şəhərində işəgötürənlər üçün “Qeyri-formal məşğulluğun qarşısının alınması” mövzusunda dəyirmi masa təşkil olunmuş, tədbirdə 25 nəfər iştirak etmişdir;
- Xidmətin tabeliyində fəaliyyət göstərən Əməyin Mühafizə Mərkəzi Xidmət, İSB və Standartlaşma institutu ilə birgə 16 təlim (31 işəgötürən, 493 iştirakçı), bədbəxt hadisələrin ən çox baş verdiyi müəssisələrdə 10 təlim (11 işəgötürən, 351 iştirakçı), SƏTƏM mühəndisləri üçün 12 təlim (48 işəgötürən, 480 iştirakçı), təhsil müəssisələri üzrə 24 təlim (11 təhsil müəssisəsi, 1556 iştirakçı), Naxçıvan Muxtar Respublikasında 50 təlim (12-si təhsil müəssisələrində olmaqla 695 müəssisə, 1424 iştirakçı), təsdiq olunmuş standartlar üzrə 2 təlim (Naxçıvan Muxtar Respublikasında 2 müəssisə üzrə 74 iştirakçı), Nazirlik daxili qurumlar üzrə 22 təlim (512 əməkdaş) keçirmişdir;
- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidməti və Nazirliyin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən işəgötürənlər Naxçıvan Muxtar Respublikası, Bakıda və regionlar daxil olmaqla “Əmək münasibətlərində gender bərabərliyi – bərabər hüquqlar, bərabər imkanlar” mövzusunda 14 maarifləndirici tədbir keçirilib. Qeyd edilən tədbirlərdən 5-i Xidmətin 2025-ci il üzrə Tədbirlər Planı çərçivəsində keçirilmişdir. Digər 9 tədbirdə 500-dək şəxs iştirak etmişdir;
- “DOST to DOST” layihəsi üzrə könüllülər üçün keçirilən təlim proqramının bağlanış mərasimi keçirilmişdir. Təlim proqramını müvəffəqiyyətlə başa vuran iştirakçıların 5 komanda üzrə IDEATHON müsabiqəsinə təqdim etdikləri həll yolları münsiflər tərəfindən qiymətləndirilmişdir. Mövzu ətrafında yaradıcı həll yollarının təqdimat formatında nümayişi olan bu müsabiqədə gənclər əmək münasibətləri üzrə innovativ düşüncələrini bölüşmüşlər. Tədbirdə 120-dək şəxs (işgötürənlər, Nazirlik əməkdaşları, könüllülər və s.) iştirak etmişdir.
- Dövr ərzində Xidmətin sosial şəbəkə hesablarında ümumilikdə 5179 paylaşım edilmişdir. Bu paylaşımlardan 1300-dək Nazirliyin ümumi fəaliyyət istiqamətləri üzrə, digərləri isə əmək qanunvericiliyi, işçilərin hüquqları və əməyin təhlükəsizliyi mövzularında olmuşdur;
- Radio və televiziya kanallarına 148 müsahibə verilmişdir;
- “Onlayn müfəttiş” layihəsi çərçivəsində müxtəlif mövzularda 47 videoçarx Xidmətin sosial şəbəkə hesablarında yayımlanmışdır;
- Əməyin mühafizəsi, “Vision Zero”, ƏMAS-ın funksionllıqları, dövrü hesabatlarla bağlı 7 qısa videoçarx hazırlanaraq yayımlanmışdır;
- Nümunəvi müəsisələrə 2 infotur və Ağdamda fəaliyyət göstərən bir neçə müəssisəyə isə 1 mediatur təşkil edilmişdir;
- Əməyin mühafizəsi sahəsində qəbul edilmiş dövlət standartları ilə bağlı 18 qısa videoçarx hazırlanaraq yayımlanmışdır;
- DOST TV-də “Onlayn müfəttiş”in veriliş formatında 7 buraxılışı yayımlanmışdır;
- "Vətəndaşa cavab" layihəsi çərçivəsində vətəndaşlardan (işəgötürənlər, işçilər) sosial şəbəkələr vasitəsilə daha çox daxil olan sorğular video formatda cavablandırılaraq Xidmətin sosial şəbəkə hesablarında ictimaiyyətə təqdim edilmişdir. Bu layihə çərçivəsində 14 videoçarx ictimaiyyətə təqdim olunmuşdur;

- Xidmətin əməkdaşları DOST TV-nin “Sosial saat” verilişində 10 dəfə, “Ekspert rəyi” verilişində isə 4 dəfə iştirak edərək aktual mövzular üzrə ictimaiyyəti məlumatlandırmışdır.

❖ **Beynəlxalq və yerli təşkilatlatlarla əməkdaşlıq üzrə**

2025-ci il ərzində beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə Xidmətin əməkdaşları aşağıdakı təlim, vebinar və görüşlərdə iştirak etmişdir:

- Beynəlxalq Sosial Təminat Assosiasiyasının təşkilatçılığı ilə "Süni zəka iş yerlərində baş verə biləcək bədbəxt hadisələrin qarşısını ala bilərmi?" mövzusunda vebinar;
- Türkiyə Respublikası Çalışma ve Sosyal Güvenlik Bakanlığı Çalışma ve Sosyal Güvenlik Eğitim ve Araştırma Merkezinin (ÇAŞGEM) əməyin mühafizəsi üzrə keçirilmiş 6 əyani (Ankara) və 7 onlayn olmaqla ümumilikdə 13 təlimi;
- BƏT-in “Sosial dialoq institutları üçün özünüqiymətləndirmə metodologiyası” üzrə əyani seminarı;
- BƏT-in Qazaxıstanda başlanan "Qazaxıstanda Mədən Sektorunda Sosial Dialoq vasitəsilə əməyin mühafizəsinin təşviqi" adlı layihəsi çərçivəsində əməyin mühafizəsi üzrə “Risk qiymətləndirmə metodologiyasını təkmilləşdirmək üçün təkliflərin hazırlanması” mövzusunda seminar;
- Beynəlxalq Sosial Təminat Assosiasiyasının “Əməyin mühafizəsi, sosial təminat, rəqəmsallaşma üzrə” simpoziumu (Osaka, Yaponiya);
- Türkiyə Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Kayseri şəhərində 38-ci „Əməyin Mühafizəsi və Təhlükəsizliyi Həftəsi“ndə iştirak (Kayseri);
- İslam ölkələri üçün Statistik, İqtisadi, Sosial Tədqiqatlar və Təlim Mərkəzinin (SESRİC) “Tikinti sənayesində təhlükəsiz iş” üzrə vebinar;
- BƏT-in “Yaşıl iqtisadiyyata ədalətli keçid” üzrə əyani seminarı;
- BƏT-in "Hər kəs üçün əmək ədalətinə çıxış, əmək mübahisələrinin qarşısının alınması və həlli üzrə üçtərəfli texniki görüşü” onlayn tədbiri;
- Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyasının (UNECE) təşkilatçılığı ilə keçirilmiş “Dayanıqlı İnkişaf” üzrə Regional Forumunda (Cenevrə, İsveçrə) iştirak;
- BƏT-in Cenevrə 113-cü sessiyası – Beynəlxalq Əmək Konfransında iştirak;
- BƏT-in baş direktoru Gilbert Houngbo, Moskva ofisinin direktoru Mixail Puşkin və baş ekspert Darko Dochinski ilə əyani görüşlər;
- İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin Əmək Nazirlərinin 6-cı “Yerli Təcrübələr, Qlobal Nailiyyətlər: İslam Dünyasında Uğurlu Hekayələr” mövzusunda keçirilən konfransda (Doha) iştirak;
- BƏT-in “Platform iqtisadiyyatında ləyaqətli əmək” mövzusu üzrə keçirilmiş məlumat sessiyasında iştirak;
- Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçı dövlətlərinin əmək, məşğulluq və əhalinin sosial müdafiəsi üzrə Məşvərət Şurasının 38-ci iclasında iştirak (Daşkənd, Özbəkistan).

Əlavə olaraq xarici dövlətlərlə ikitərəfli əməkdaşlıq çərçivəsində əmək qanunvericiliyi sahəsində beynəlxalq təcrübənin öyrənilməsi üçün aşağıdakı tədbirlər görülmüşdür:

- “Nazirlik ilə İndoneziya Respublikasının İşçi Qüvvəsi Nazirliyi arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nun icrası çərçivəsində onlayn görüş;
- “Nazirlik ilə Türkiyə Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında təsdiq edilmiş 2024-2025-ci illər üzrə Tədbirlər Planı”nın icrası olaraq həm əyani, həm də onlayn görüşlər;

- “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti ilə Rusiya Federasiyasının Əmək və Məşğulluq üzrə Federal Xidməti arasında qarşılıqlı əməkdaşlıq haqqında Memorandum”un həyata keçirilməsi məqsədilə 2025-2026-cı illər üzrə Tədbirlər Planının icrası üzrə onlayn görüşlər;
- Özbəkistan Respublikasının “Əmək üzrə vahid milli sistemi”nin texniki-proqram kompleksinin direktoru ilə görüş;
- Cənubi Koreya Respublikasının Əməyin Mühafizəsi Agentliyi (KOSHA) tərəfi ilə əməyin mühafizəsi sahəsinin rəqəmsallaşdırılması üzrə qarşı tərəfin təcrübəsinin öyrənilməsi məqsədilə onlayn görüş.
- İsrail dövlətinin Əmək nazirliyi nümayəndələri ilə onlayn görüş keçirilib.Görüşdə ikitərəfli məlumat və təcrübə mübadiləsi edilib.Təqdimatlar ilə çıxışlar edilib.

Qeyd olunan bütün tədbirlərdə əmək münasibətlərinin tənimlənməsi və qanunvericiliyin müxtəlif istiqamətləri üzrə təcrübə mübadiləsi aparılmışdır.

Eyni zamanda Xidmət tərəfindən təklif olunan və ya münasibət bildirilən qanunvericilik layihələrinin əhatə etdiyi mövzular üzrə beynəlxalq təcrübə araşdırılmışdır.

Xidmət cari il ərzində əmək münasibətlərinin tənzimlənməsi və bu sahədə rəqəmsallaşma, maarifləndirici videoçarxların hazırlanması və s. üzrə 15 beynəlxalq mükafata layiq görülmüşdür.